**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 249/2** **29 dekabr 2013-cü il**

**Auditor xidmətinin aktual problemləri üzrə keçirilmiş sosioloji sorğunun nəticələrinə dair icmal haqqında**

Auditorlar Palatasının 2013-cü il üzrə iş planının - "Auditor xidmətinin aktual problemləri üzrə sorğunun keçirilməsi və müvafiq icmalın hazırlanması" və Palata Şurasının 2013-cü il üzrə iş planının - "Auditor xidmətinin aktual problemləri üzrə keçirilmiş sorğunun nəticələrinin təhlili və təkliflərin hazırlanması" barədə 8.8-ci və 21-ci müvafiq bəndlərinin icrası ilə əlaqədar Auditorlar Palatası sədrinin 2013-cü il 17 oktyabr tarixli 1/15 saylı sərəncamına əsasən yaradılmış işçi qrupu (rəhbər S.Gülməmmədov) tərəfindən aparılmış sorğunun nəticələri barədə təqdim edilmiş icmalı müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** "Auditor xidmətinin aktual problemləri" mövzusunda keçirilmiş sorğunun nəticələri barədə icmal bəyənilsin (əlavə olunur).

**2.** Kadr hazırlığı və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov), Analitik informasiya və təhlil şöbəsinə (R.Cəfərli) tapşırılsın ki, 2014-cü ilin I rübündə sorğunun nəticələri ilə əlaqədar auditor xidmətində müəyyən olunmuş mövcud problemlərin təhlili və onların aradan qaldırılması istiqamətində tədbirlər planının layihəsini hazırlayıb Palatanın rəhbərliyinə təqdim etsinlər.

**3.** Kadr hazırlığı və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, 2014-cü ilin I rübündə əlaqədar qurumların və təsərrüfat subyektlərin nümayəndə-lərinin, auditorların, iqtisadçı alimlərin və digər maraqlı şəxslərin iştirakı ilə bu sorğunun nəticələrinə həsr olunmuş seminar-müşavirənin keçirilməsi təşkil edilsin.

**4.** "Auditor xidmətinin aktual problemləri" mövzusunda keçirilmiş sorğunun nəticələrinin təbliği və geniş ictimaiyyətə çatdırılması üçün Palatanın internet səhifəsinin və KİV-nin istifadəsi məqsədəuyğun hesab edilsin.

**5.** "Auditor xidmətinin aktual problemləri" mövzusunda keçirilmiş sorğuda fəal iştirak etmiş və sorğunun nəticələrini ümumiləşdirərək icmalın hazırlanmasında böyük əmək sərf edən Palatanın bu işlərlə məsul olan əməkdaşlarının mükafatlandırılması məqsədəmüvafiq hesab edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**